# “Bakı - 2015” ilk Avropa Oyunlarının tarixi əhəmiyyəti

**Möhtəşəm açılış və bağlanış mərasimləri, qızğın idman mübarizəsi və geniş, yüksək səviyyəli mədəni proqramı ilə tarixə dönən 17 gündə dünya idman ictimaiyyətinin diqqəti Azərbaycanda oldu. Minlərlə idmançının əzmlə mübarizə apardığı bu Oyunların gedişini milyonlarla tamaşaçı izlədi. Birinci Avropa Oyunlarını ölkəmiz və Avropa üçün tarixi hadisə adlandıran Azərbaycan Prezidenti cənab İlham Əliyev bildirib: “Ölkəmiz üçün ona görə tarixi hadisədir ki, bu günə qədər Azərbaycanda bu səviyyədə beynəlxalq idman yarışı keçirilməmişdir. Avropa üçün isə ona görə ki, Avropada başqa qitələrdən fərqli olaraq heç vaxt qitə oyunları keçirilməmişdir”.**

“Bakı - 2015” birinci Avropa Oyunlarında əlli ölkədən gəlmiş 6000-dən artıq idmançı 20 idman növü üzrə medallar uğrunda yarışdı. Onlardan 16 idman növündə Rio - 2016 Yay Olimpiya Oyunları üçün təsnifat mərhələsindən keçmək imkanı təmin edildi. Azərbaycan idmançıları birinci Avropa Oyunlarında tarix yazmağa nail oldular. Onlar yarışlarda 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazandılar. Qitə üzrə ikinci yeri tutan Azərbaycan idman ölkəsi olduğunu bir daha təsdiqlədi.

Oyunlara və atletlərə verdiyi böyük dəstəyə görə Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirən Azərbaycanın birinci xanımı, “Bakı - 2015” ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva bəyan edib ki, 17 gün Azərbaycanın tarixində əlamətdar və yaddan çıxmaz günlər oldu. İlk Avropa Oyunlarının ölkəmizdə keçirilməsindən fərəhlənirik. Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi iki il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi. 17 gün ərzində biz Avropa dövlətləri arasında birliyin, həmrəyliyin və dostluğun şahidi olduq.

–Azərbaycan, sən bizim səmimi və qonaqpərvər ev sahibimiz oldun, - deyən Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki bildirib ki, Azərbaycanda yaradılan idman obyektləri gələcək illərdə atletlərinizə, xalqınıza və gənclərə xidmət edəcək. Belə bir böyük layihələrin reallaşdırılmasında nümayiş etdirdiyimiz yekdilliyə görə hamınıza minnətdarıq. Siz komandalarınızı idman arenalarında ən yüksək nəticələri əldə etmək üçün ilhamlandırdınız. Avropa fərqliliklər və böyük rəqabət, müxtəliflik, idman və yarışma qitəsidir. Lakin burada, Avropa Oyunlarında biz ümumi inamla, ümumi bayraq altında toplaşdıq: idman və Olimpiya ideallarına doğru addımlamaq bizi ayıran yox, daha çox birləşdirən məkana aparır. Bu inam ondan ibarətdir ki, biz - Avropanın 50 ölkəsi hər dörd ildən bir iki möhtəşəm həftə ərzində birgə ola bilərik. Bu, bütün gələcək Avropa Oyunlarının əsaslanacağı Oyunlar oldu. Bu cür tədbirin sarsılmaz və ilhamlandırıcı əsası qoyuldu. Avropa Olimpiya ailəsinə və dünyadakı dostlarımıza tam əminliklə deyirəm: “Azərbaycanın gələcəyi parlaqdır. Avropa Oyunlarının gələcəyi parlaqdır”.



Təşkilatçılıq səviyyəsinə görə birinci Avropa Oyunlarını ən yaxşı idman tədbirlərindən biri adlandıran boks üzrə Litva yığmasının məşqçisi Vladimir Bayevas bildirib ki, mən idmançılarımızla bir yerdə Sidney, Pekin, London, Sinqapur çempionatlarında və lap bu yaxınlarda isə Bakıda çıxış etmişəm. Onun sözlərinə görə, Atletlər Kəndi ən yüksək səviyyədə təşkil edilib, yaşamaq üçün ideal şərait yaradılıb, idmançılar dadlı yeməklər və rahat avtobuslarla təmin olunub. Litvalı məşqçi Azərbaycan paytaxtı barədə təəssüratlarını bölüşərək deyib: “Demək olar ki, hər il Bakıda keçirilən dünya çempionatlarında iştirak etmişəm. Sonuncu dəfə biz boks üzrə “Böyük İpək Yolu” Beynəlxalq turnirində iştirak etmişik”.

“Bakı - 2015” ilk Avropa Oyunlarının yekunlarına dair ölkəsinin mətbuatına açıqlama verən Avstriya Olimpiya Komitəsinin baş katibi Peter Mennel bildirib ki, Avropa Oyunlarının böyük gələcəyi var. Ona görə Oyunlar üçün yüksək səviyyədə təşkilatçılıq səriştəsi, bu tədbirin arxasında dayanaraq dəstəkləyən xalq və Oyunlara layiqli ev sahibliyi üçün Bakının mövqelərini möhkəmləndirən ölkə rəhbərliyi yaddaqalan olub.

Yarışlara hazırlığın mükəmməl şəkildə keçirildiyini vurğulayan P.Mennel yeni formatın böyük gələcəyi olacağını qeyd edib.

“Bakı - 2015” birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi və bununla bağlı dünya mətbuatında öz əksini tapan fikirlər də təsdiqləyir ki, ilk Avropa Oyunlarında təşkilatçılığın səviyyəsi Olimpiya standartlarına tam uyğun idi. İlk Avropa Oyunlarının Bakıdakı ideal premyerasından sonra bu idman yarışları növbəti illərdə dünyanın ən vacib qitə turnirinə çevriləcək.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**